AZƏRBAYCAN RESPUBLİKASI

# Su və Sağlamlıq Protokolu çərçivəsində Milli hədəflərin təqdimatı

**Dr.Leyla Tağızadə - layihənin rəhbəri**

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzi**

**5 iyul 2018 -ci il Bakı, Azərbaycan**

# SU VƏ SAĞLAMLIQ
## Protokolun həyata
## keçirilməsində əldə olunmuş nailiyyətlər və problemlər

**BMT tərəfindən bəşəriyyət qarşısında qoyulmuş Davamlı İnkişaf Məqsədləri ilə əlaqədar, Azərbaycan dövləti tərəfindən**

- **"Transsərhəd su axınları və beynəlxalq göllərin qorunması və istifadəsi" Konvensiyası 2000-ci ildə :**
- **Su və Sağlamlıq Protokolu 2002-ci il ratifikasiya olunub**

**Ölkədə Su və Sağlamlıq Protokolunun həyata keçirilməsində məqsədli göstəricilər təyin olunmuşdur.**

## SU VƏ SAĞLAMLIQ
## Protokolun həyata keçirilməsində əldə olunmuş nailiyyətlər və problemlər

**Azərbaycanda Protokolun təsdiq olunduğu vaxtdan hazırki müddətə kimi Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə imkan yaradan bəzi konkret addımlar atılıb:**

- **2003-cü ildə Azərbaycan Respublikasının Höküməti tərəfindən ekoloji kontekstə uyğun olaraq «Ölkənin dayanaqlı sosial-iqtisadi inkişafına dair Milli Proqram»ı qəbul olundu. Həmin Proqramın bir hissəsi bütövlükdə su siyasətinə həsr olunub. Buna müvafiq olaraq ölkənin hər bir sakini təhlükəsiz və keyfiyyətli içməli su ilə təmin olunmalıdır.**

- **Cəmiyyətin bütün istiqamətlərinin sürətlə inkişafı Azərbaycan Dövlətinin fəaliyyətində əhəmiyyətli yer tutur. Dövlətin su siyasətinin məqsədi əhalinin ehtiyaclarını ödəməklə yanaşı ətraf mühitin qorunmasını və yaşayış üçün yararlığını təmin etməkdir. Bununla bərabər, əsas prinsiplərdən biri də gələcək nəsillərin və digər dövlətlərin də yararlı ətraf mühitə olan hüquqlarının pozulmamasından ibarətdir.**

## SU VƏ SAĞLAMLIQ
## Protokolun həyata keçirilməsində nailiyyətlər və problemlər

**Milli Proqramlar qəbul edilən zaman, beynəlxalq təşkilatların təcrübəsi, beynəlxalq konvensiyalar tərəfindən qoyulmuş məsələlər nəzərə alınıb. Ölkənin yaşayış şəraitinə əsaslanaraq, normativ xarakterli aktlar qəbul edilib. Milli Proqramları qəbul etməzdən əvvəl layihələr ictimaiyətin o cümlədən qeyri-dövlət təşkilatların müzakirəsinə çıxarılıb**

**Proqramların əsas məqsədləri aşağıdakılardır:**

- **ölkənin iqtisadiyyatının diversifikasiyası və dünya iqtisadiyyatı sistemi ilə birləşməsi;**

- **növbəti illərdə infrastrukturun təkmilləşməsi, kommunal xidmətlərin və əhalinin həyat tərzinin yüksəlməsi.**

**Dövlət və sahəvi proqramlarda qeyd olunmuş nəticələr, həmçinin su sektorunda olan problemlər ilə bağlı beynəlxalq və milli layihələrdə nəzərdə tutulmuş məqsədlər, aşağıda qeyd edilənlərin əldə olunmasına kömək edir:**

- **milli və yerli məqsədli göstəricilərin müəyyənləşdirilməsinə;**
- **həmçinin bu göstəricilər bütün əhalinin içməli su və sanitariya ilə təmin olunmasına dair müvafiq tədbirlərin inkişafına təkan verir.**

## SU VƏ SAĞLAMLIQ
## Protokolun həyata
## keçirilməsində əldə olunmuş nailiyyətlər və problemlər

**Müstəqillik illərində Azərbaycanda müxtəlif sahələrdə çalışan ictimai birliklər, fondlar və digər qeyri-hökümət təşkilatlarından ibarət qeyri-hökümət sektoru yaradılıb.**

**Ölkədə «Azərbaycan Respublikası qeyri-hökümət təşkilatlarının dövlət dəstək Konsepsiya»sı təsdiq edilib.**

**Azərbaycanda qeyri-hökümət təşkilatları aşağıdakı tədbirləri yerinə yetirir:**

- **su sektorunda olan problemlər haqqında ictimaiyyətin məlumatlandırılması;**
- **su resurslarının qorunması üzrə hüquqi və qanuni aspektlərini izah edir (bülleten, bukletlər, mətbuatda çıxışlar və treninqlərin keçirilməsi);**

**Həmçinin, təsdiq olunmuş beynəlxalq ekoloji konvensiyaların şərtlərinin yerinə yetirilməsi üzrə müvafiq tərəflərin nümayəndələri, həmçinin, qeyri-dövlət təşkilatlarının iştrakı ilə işçi qrupları yaradılıb**

## SU VƏ SAĞLAMLIQ
## Protokolun həyata keçirilməsində əldə olunmuş nailiyyətlər

**Azərbaycan ümumilikdə 2020-ci ilə kimi prioritet istiqamətlərini müəyyən edən "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası hazırlanmışdır.**

**Ekologiya və Təbii Sərvətlər və Səhiyyə nazirlikləri birgə Starteji Fəaliyyət Planları hazırlanmışdır. Bu planda ətraf mühitin kefiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensiallarının və müasir üsullarla idarə edilməsi, indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin texnologiyalarının istifadəsi, insan həyat fəaliyyətini təmin edə biləcək ekosistemlərinin əsas istiqamətləri üzrə məqsədlərə çatmaq vəzifə olaraq qarşıya qoyulmuşdur. Həmçinin, planlşdırılan hədəflərə nail olmaq məqsədi ilə qısa müddətli və uzun müddətli prinsiblər qəbul edilmişdir. Belə ki, Səhiyyə Nazirliyi tərəfindən yoluxucu xəstəliklərin profilaktikası məqsədilə profilaktik tədbirlərin gücləndirilməsi işi qısa müddətli plana daxil edilmişdir. 2015-2020-ci illərdə müvafiq tədbirlərin həyata keçirilməsi ilə sanitariya-epidemioloji xidmətin inkişafina nail olunacaqdır.**

# Diqqətinizə görə minnətdaram!

**Dr.Leylaxanım Tağızadə**

e-mail:leylatagizadeh@yahoo.com